# OV ƏHVALATI

(novella)



*İlham Abbasov,*
*hüquq üzrə fəlsəfə doktoru,*
*baş ədliyyə müşaviri*

Bir neçə il idi ki, rayonumuzun ”Yazı düzü” deyilən ərazisi dəmyə sahə olduğundan respublika səviyyəsində əkin və digər kənd təsərrüfatı məqsədləri üçün istifadə ediləcək su borusu çəkilirdi. Tikinti-quraşdırma işlərini Bakıda yerləşən səyyar tikinti-quraşdırma dəstəsi icra edirdi.

Həmin rayona prokuror vəzifəsinə təyin edilməzdən əvvəl tikinti-quraşdırma dəstəsinin işçilərindən biri texniki təhlükəsizlik qaydalarının pozulması nəticəsində su ötürmək məqsədilə quraşdırılmış borulardan birinin işçinin ayağına düşməsi nəticəsində ağır bədən xəsarəti almışdı. Faktla əlaqədar cinayət işi başlanmışdı və istintaq gedirdi. Səyyar tikinti-quraşdırma idarəsi Bakıda yerləşdiyindən və işçilərin müxtəlif rayonlardan olduqlarına görə bizim rayonumuza ezam olunurdular, 15-20 gün işləyib, 10 gün də istirahət edirdilər.

İşçiləri işdən ayırmamaq məqsədilə və onların ezam olunmasını nəzərə alaraq, müstəntiqə tapşırdım ki, şahidləri elə iş yerlərində dindirsin. Ona görə də müstəntiq axşamdan xahiş etdi ki, prokurorluğa məxsus ”Niva” markalı avtomaşını onun sərəncamına verim, o da şahidləri iş yerlərində dindirsin.

Səhər tezdən iş yerinə gələn kimi sürücünü çağırıb tapşırdım ki, bu gün müstəntiqlə ”Yazı düzü”ndəki fermaya getsin, müstəntiq orada Bakıdan gəlmiş işçiləri dindirəcək. Müstəntiq təxminən on dəqiqədən sonra gəlib mənə bildirdi ki, başqa tapşırığınız yoxdursa, mən sürücü ilə fermaya gedirəm. Dedim ki, xeyr yoxdur, tapşırıq vermişəm, gedə bilərsən.

Adətim üzrə səhər-səhər mərkəzi və respublika qəzetlərini nəzərdən keçirirdim. Müstəntiqin sürücü ilə getməsindən təxminən yarım saat keçmiş olardı. Elə bil kimsə mənə dedi ki, dur müstəntiqin arxasınca get, gör müstəntiq orada nə işlə məşğuldur. Mən müstəntiqi göndərdiyim həmin fermaya getmək üçün rayon DİŞ-in rəisinə şöbənin avtomaşınını mənim sərəncamıma verməsini xahiş etdim. Sürücü gəlib mənə dedi:

- Yoldaş prokuror, rəis məni sizin sərəncamınıza göndərib, hara gedəcəyik?

Dedim ki, aşağıda gözlə gəlirəm. Mən maşına minəndə sürücüyə dedim ki, sür ”Yazı düzü”ndəki ferma sahəsinə.

Axşamdan yağan qar səhərə yaxın da yağmışdı. Hər yer, elə bil, ağ örpəyə bürünmüşdü. Sürücü ferma sahəsinə yaxınlaşanda yoldakı maşın təkərinin izlərini göstərib dedi ki, yoldaş prokuror, deyəsən, sizin maşın da bura gəlib. Cavab verdim ki, bəli, müstəntiqi gətirib, burada şahidləri dindirməlidir.

Biz fermaya çatanda sakitlik idi, səhər sağımı başa çatmışdı, ferma işçiləri gözə görünmürdü. Sürücüyə dedim:

- Get gör, içəridə kim var.

Sürücü ferma binasının içərisinə girdi və bir-neçə dəqiqədən sonra bir qədər yaşlı bir nəfərlə geri qayıtdı və dedi:

- Yoldaş prokuror, bu kişi fermanın gözətçisidir.

Mən gözətçidən soruşdum:

- Ağsaqqal, prokurorluğun müstəntiqini tanıyırsan?

Gözətçi cavab verdi ki, bəli tanıyıram, bir az bundan əvvəl burada idi.

Dedim:

- Bəs hara getdilər? Axı qabağımızdan çıxmadılar?

Gözətçi cavab verdi ki, onlar səyyar tikinti-quraşdırma dəstəsinin burada işləyən işçilərini soruşdular və mən dedim ki, onlar hazırda burada yoxdular, evlərinə baş çəkməyə gediblər, 10 günlük istirahətdədirlər, gələn həftə gələcəklər. Gözətçi onu da əlavə etdi ki, onlar gəldikləri yolu geri qayıtmadılar, irəliyə doğru getdilər.

Mənimlə gələn sürücüyə dedim ki, sür irəli, görək onlar haradadırlar. Geldiyimiz yolda da prokurorluğun avtomaşınının izləri açıqaydın görünürdü.

Biz kənd arası yoldan magistral yola çıxanda gördük ki, avtomaşının təkər izləri yox olur. Buna isə səbəb o idi ki, magistral yolda avtomaşınlar çox olduğundan qar oturmurdu. Sürücüyə dedim:

- Sür, qayıdaq rayona.

Biz gəldiyimiz yolla deyil, magistral yolla rayona qayıtmalı olduq. Avtomaşın rayon ərazisindən keçən çayın üzərindəki iri körpüdən keçərkən gözüm istər-istəməz sol tərəfə sataşdı. Nə görsəm yaxşıdır?! Prokurorluğun avtomaşınını çayın kənarında, yaxınlıqda isə prokurorluğun müstəntiqi, sürücüsü və tanımadığım bir-iki nəfər də var idi. Bu vəziyyət məni yaman əsəbiləşdirdi.

Sürücüyə dedim:

- Mən bunları iş ilə əlaqədar göndərirəm, bunlar da çayda balıq tuturlar. Sür onların yanına.

Maşınımız ora çatanda sürücü və müstəntiq çıxılmaz vəziyyətdə qaldılar. Sürücü və müstəntiqin mənim onları tapacağıma heç gümanları gəlmirdi, ona görə də çox təəccüblə mənə baxdılar. Maşından düşən kimi müstəntiqi möhkəm danlayaraq dedim:

- Mən səni iş üçün göndərmişəm, yoxsa çaydan balıq tutmağa?

Müstəntiq özünü təmizə çıxarmaq üçün dedi:

- Yoldaş prokuror, biz fermaya getdik, orada aydın oldu ki, işçilər istirahətə gediblər, gələn həftə gələcəklər.

Dedim ki, yaxşı, şahidləri tapa bilmədiniz, qayıdıb gələrdiniz idarəyə.

Doğrusu, müstəntiq heç bir söz demədi, susdu. Mən çayın kənarında ayağına rezin uzunboğaz çəkmə geyinmiş sürücünün yaxına gəlməsini əlimlə işarə etdim. Sürücü utana-utana yaxına gəldi. sürücüdən:

- Mən sizi hara göndərmişəm, - deyə soruşdum.

Sürücü çox utana-utana cavab verdi:

- Yoldaş prokuror, bizi iş dalınca göndərmişdiniz, ancaq adamlar orada olmadılar. Elə yolüstü bura döndük.

Bu zaman gözlərim ”Niva” avtomaşınının yük yerinə sataşdı. Yük yerini açanda gördüm ki, orada bir ov silahı, ov çəkmələri və bir ədəd də karton karobka var. Yük yerində bu əşyaları görəndə lap əsəbiləşdim və sürücünü danlayaraq dedim:

- Sən ağsaqqal adamsan, oğlun yerində adamın başına ağıl qoymaqdansa, iş vaxtı gəlib burada balıq tutursunuz.

Sürücü dedi ki, vallah, yoldaş prokuror, adamlar orada olmadı, ona görə bura gəldik.

Gördüm ki, sürücü səmimi danışmır, ağ yalan danışır, ona görə də avtomaşındakı ov ləvazimatlarını göstərib soruşdum:

- Bu ov silahı, ovçu çəkmələri kimindir?

Sürücü cavab verdi ki, onundur. Əlavə soruşdum ki, siz rayon mərkəzindən fermaya gələrkən ov edəcəyinizi, balıq tutacağınızı bilirdiniz?

Sürücü cavab verdi ki, xeyr, bilmirdik. Daha sonra mən sürücüyə dedim:

- Sizin əvvəlcədən bura gəlmək fikriniz yox idisə, avtomaşının yük yerində olan bu ov ləvazimatları nəyə lazım idi? Axı səhər məni işə gətirəndə bu əşyalar yük yerində yox idi. Bu əşyaların yük yerində əvvəlcədən olması isə onu göstərir ki, siz qabaqcadan ova hazırlıq görmüsünüz.

Belə deyəndə sürücü yaman pərt oldu. Bir onu dedi ki, vallah, məni bu müstəntiq yoldan çıxardı. Mən isə, öz növbəmdə, sürücüyə dedim:

- Eyib olsun sənə, oğlun yaşda adam səni yoldan çıxarır, bunu necə başa düşək?

Müstəntiqlə sürücünün çaydan balıq tutmağa gəlmələri və ov etmək məqsədləri deyil, onların mənə yalan danışmaları daha çox təsir etdi. Ona görə də onların hər ikisini ciddi surətdə danladım və artıq orada qalmağın mənasız olduğunu görüb, gəldiyim maşına əyləşib, sürücüyə rayon mərkəzinə qayıtmağım barədə göstəriş verdim...